**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN PİANOÇULARININ FORMALAŞMASINDA XX ƏSR RUS MUSİQİSİNİN ROLU

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Rəfiqə Ehtiram qızı Quluzadə** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Nuridə Cəfər qızı İsmayılzadə**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Jalə Elman qızı Qulamova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Könül Qabil qızı Hüseynova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
__________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
__________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
__________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan fortepiano ifaçılığı sənəti zəngin inkişaf yolu ənənələrinə malikdir. İfaçılıq mədəniyyətinin təşəkkülü və inkişafı Azərbaycan musiqi sənətinin ayrılmaz bir hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Rus ifaçılıq məktəbinin təsiri məsələləri Azərbaycan fortepiano sənətinin inkişafında ən mühüm istiqamətlərdən biri kimi dəyərləndirilir. Azərbaycan fortepiano məktəbinin inkişafı tarixində və fortepiano ifaçılığının tədrisində rus ifaçılıq məktəbini təmsil edən ifaçı-müəllimlərin fəaliyyəti, müəllim-tələbə münasibətləri, konsert fəaliyyəti, pedaqoji potensialı, ifaçılıq nailiyyətləri və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında rolunun nəzərə çatdırılması müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan fortepiano ifaçılıq məktəbinin təşəkkülü və inkişafında mühüm əhəmiyyət kəsb edən simalardan biri Moskva Konservatoriyasının məzunu olan Antonina Nikolayevna Yermolayeva olmuşdur. A.N.Yermolayevanın fəaliyyəti nəticəsində milli ifaçılar nəsli yetişməyə başlamış və onlar Azərbaycan fortepiano məktəbinin ilk nümayəndələri olmuşlar. G.G.Şaroyev, A.A.Aleksandrov, M.L.Presman, İ.S.Aysberq, M.R.Brenner və digər pianoçularun Bakıya dəvət edilməsi Azərbaycan fortepiano ifaçılığı məktəbinin əsasının qoyulmasına təkan vermişdir. Rus ifaçılıq məktəbini təmsil edən bu müəllimlərin milli pianoçuların yetişdirilməsi və formalaşdırılması məsələlərinin araşdırılması, eləcə də rus bəstəkarlarının əsərlərinin təfsir xüsusiyyətlərinin təhlil edilməsi tədqiqat işinin aktuallığını müəyyənləşdirir.

Azərbaycan fortepiano sənətinin inkişafında rus ifaçılıq məktəbinin rolu və XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanların ifaçılıq tərzinə təsiri milli pianoçuluq məktəbinin mühüm istiqamətlərindən biridir. Bu baxımdan rus bəstəkarlarının əsərlərinin Azərbaycan pianoçularının təfsirində öyrənilməsi böyük maraq doğurur. Məlumdur ki, təfsir ifaçılıq sənətinin ən mühüm tərəflərindən biridir və onun araşdırılması özündə mürəkkəb prosesləri ehtiva edir. Belə ki, əsərin yazılması və ifası tarixinə nəzər salınması, musiqi obrazlarının səciyyəvi xüsusiyyətlərinin işıqlandırılması və ən əsası isə ifaçının şəxsi keyfiyyətlərinin əsərlərin təfsirində əks olunması

Azərbaycan pianoçularının ifaçılıq sənətində malik olduğu keyfiyyətlərin göstəriciliyinə aydınlıq gətirir.

XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanların Azərbaycan pianoçularının ifaçılıq tərzinə təsirinin araşdırılması milli musiqi sənətinin geniş imkanlara malik olmasını şərtləndirir və incəsənətimizi zənginləşdirir. Məhz buna görə də milli musiqi elmində, eləcə də fortepiano ifaçılığı sənətində rus bəstəkarlarının rolu və əhəmiyyətinin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolunun elmi cəhətdən araşdırılmasını aktual edən bir sıra səbəblər də mövcuddur. Əvvəla, milli fortepiano mədəniyyətinin formalaşmasında rus fortepiano ifaçılığı məktəbinin böyük təsiri vardır. Uzun illər boyu rus ifaçılıq məktəbini təmsil edən nümayəndələrin Azərbaycanda tədris prosesinə cəlb olunması milli ifaçıların formalaşmasına bilavasitə təsir göstərmişdir. Rus bəstəkarlarının dəfələrlə ifa olunmuş əsərlərinin Azərbaycan fortepiano məktəbində öyrənilməsinin xüsusiyyətləri onların təfsirinin zamanla daha da aktual əhəmiyyət kəsb etməsini şərtləndirmişdir. Bu baxımdan müasir dövrümüzdə rus fortepiano ifaçılığı məktəbini təmsil edən pedaqoqların fəaliyyətinin araşdırılması da aktuallıq kəsb edir və böyük maraqla qarşılanır. Rus ifaçılıq məktəbini təmsil edən G.Şaroyev, M.Brenner və Y.Zak milli fortepiano ifaçılığı sahəsində mühüm yeri və rolu olan pedaqoqlardır.

Azərbaycan ifaçılarının repertuarında S.V.Raxmaninovun, A.N.Skryabinin, D.D.Şostakoviçin, S.S.Prokofyevin və İ.F.Stravinskinin fortepiano əsərlərinin təfsiri xüsusiyyətlərinin hərtərəfli şəkildə araşdırılması tədqiqat işinin aktuallığını daha da artırır. Belə ki, Azərbaycan pianoçularının rus bəstəkarlarının əsərlərini təfsir etməsi müasir dövrdə aktualdır və eyni zamanda rus fortepiano musiqisindəki impressionizm və ekspressionizmin Azərbaycan fortepiano ifaçılığına təsirini şərtləndirir. Bu mənada hesab etmək olar ki, Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolunun öyrənilməsi, eləcə də müasir musiqi üslubunun Azərbaycan fortepiano mədəniyyətinə gətirilməsi və yeni ifaçılıq ünsürlərinin meydana gəlməsinin araşdırılması tədqiqat işinin aktuallığını daha da artırır.

Yeni bəstəkarlıq texnikası üsullarının tətbiqi bütün dünyada olduğu kimi, Azərbaycanda ifaçılar qarşısında fərqli təfsir üsullarına müraciət olunmasını şərtləndirir. Bu baxımdan rus bəstəkarlarının əsərlərinin təfsiri milli ifaçıların da repertuarında fərqli ifaçılıq üsullarının öyrənilməsini vacib edir.

Bununla əlaqədar olaraq, Azərbaycan pianoçularının tarixi inkişaf mərhələlərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi və onun tarixi-nəzəri cəhətdən müqayisəli təhlilinin verilməsi, eləcə də mövcud olan müxtəlif cərəyanların ifaçılıq tərzinə təsirinin araşdırılması tədqiqat işinin aktuallığını müəyyənləşdirir.

Azərbaycan fortepiano mədəniyyəti bir çox elmi-tədqiqat əsərlərində və pianoçuların ifaçılıq fəaliyyətinə həsr olunmuş kitablarda işıqlandırılmışdır.

T.Seyidovun “XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı”[1] adlı monoqrafiyasında Azərbaycan fortepiano mədəniyyətində baş verən müxtəlif təzahürlərin qarşılıqlı əlaqəsi tarixi retrospektivdə əsaslı şəkildə təhlil edilmiş və milli musiqişünaslıq elmində fortepiano ifaçılığının tərkib hissələrinin qarşılıqlı əlaqəsi təqdim olunmuşdur.

F.Xəlilovanın “Azərbaycan fortepiano mədəniyyəti tarixinin ocerkləri”[2] adlı tədqiqat işində milli fortepiano ifaçılığının inkişafı və təkamülü işlənilmişdir.

Müasir Azərbaycan ifaçılıq məktəbinin tanınmış nümayəndəsi Yeganə Axundovanın “Sergey Raxmaninovun fortepiano konsertləri”[3] adlı kitabında S.Raxmaninovun konsertlərinin yaranma tarixi, ən mühüm üslub xüsusiyyətləri, məzmunu və quruluşu elmi şəkildə öyrənilmişdir.

Z.Əsədovun “Georgi Şaroyev fenomeni”[4] adlı monoqrafiyasında görkəmli pianoçu G.Şaroyevin həyat və yaradıcılıq yolu xronoloji ardıcıllıqla izlənilmişdir.

---

[1] Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[2] Халилова, Ф. Очерки истории азербайджанской фортепианной культуры: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 1969. – 24 с.

[3] Axundova, Y.Ə. Sergey Raxmaninovun fortepiano konsertləri. Dərs vəsaiti / Y.Ə.Axundova. – Bakı: Elm, – 2014. – 100 s.

[4] Əsədov, Z.F. Georgi Şaroyev fenomeni / Z.F.Əsədov – Bakı: Gənclik, – 2018. – 120 s.

Ümumiyyətlə, Azərbaycan fortepiano ifaçılığı L.Abasquliyevanın[5], L.Rzayevanın[6], Z.Əliyevanın[7], A.Zamanovanın[8], L.Əliyevanın[9], A.Mayılovanın[10], G.Səfərovanın[11], N.İbrahimovanın[12] elmi-tədqiqat işlərində araşdırılmışdır.

Tədqiq olunan mövzu ilə əlaqədar bəzi məsələlər Q.Qarayev[13], C.Hacıyev[14], F.Əmirov[15], V.Adıgözəlov[16,17],

---

[5] Абаскулиева, Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 2005. – 28 с.

[6] Рзаева, Л.С. Современная фортепианная музыка Азербайджана (проблемы творчества и исполнительства): / автореферат дис. доктора философии по искусствоведению. / – Ленинград, 1990. – 17 с.

[7] Алиева, З.Г. Фортепианные произведения Кара Караева. Некоторые вопросы стиля и исполнительской интерпретации: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 1973. – 24 с.

[8] Заманова, А.А. Фортепианное творчество Фикрета Амирова: / автореферат дис. доктора философии по искусствоведению. / – Ташкент, 1984. – 28 с.

[9] Алиева, Л.Э. Фортепианные циклы композиторов Азербайджана (вопросы эволюции жанра и стиля): / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 2004. – 28 с.

[10] Маилова, А.Г. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафар-Алиевой / А.Г.Маилова. – Баку: Адильоглы, – 2003. – 466 с.

[11] Сафарова, Г.Н. Формы методы использования национальной музыки в начальном фортепианном обучении детских музыкальных школ Азербайджана: / автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 2003. – 22 с.

[12] Ибрагимова, Н.А. История, теория и практика концертмейстерского мастерства в Азербайджане. Учебное пособие для студентов и преподавателей фортепианного факультета Бакинской музыкальной академии / Н.А. Ибрагимова. – Баку: TS, – 2006. – 78 с.

[13] Карагичева, Л.В. Кара Караев / Л.В.Карагичева. – Москва: Советский композитор, – 1960. – 296 с.

[14] Абаскулиев, О.Г. Методико-исполнительская разработка вопросов интерпретации фортепианных произведений Джевдета Гаджиева / О.Г.Абаскулиев. – Баку: Минвуз АзССР, – 1980. – 39 с.

[15] Адигезалзаде, З.А. Фортепианные миниатюры Фикрета Амирова / З.А.Адигезалзаде. – Баку: Ишыг, – 1979. – 32 с.

[16] Zalova, Z.Ə. Vasif Adıgözəlovun fortepiano konsertlərində milli xüsusiyyətlər: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2007. – 22 s.

[17] Эфендиева, И.М. Васиф Адигезалов / И.М.Эфендиева. – Баку: Нур, – 1999. – 323 с.

C.Quliyev[18] kimi Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunan müxtəlif səpkili elmi əsərlərdə işıqlandırılmışdır.

Azərbaycan fortepiano ifaçılığı tarixində mühüm rol oynamış K.Səfərəliyeva[19], S.Quliyeva[20], F.Bədəlbəyli[21, 22], E.Əliyeva[23], O.Abasquliyev[24] kimi pianoçuların yaradıcılıq fəaliyyətini əks etdirən elmi-tədqiqat əsərləri də mövzunun işlənilməsi zamanı nəzərə alınmışdır.

Müəyyən edilmişdir ki, Azərbaycan musiqisində fortepiano ifaçılığı ilə bağlı çoxsaylı araşdırmalar mövcuddur. Lakin bunlar daha çox bəstəkar yaradıcılığı, milli pianoçuların fəaliyyəti, fortepiano ifaçılığı metodikası və müxtəlif musiqi janrları ilə bağlıdır. Bu əsərlərdə Azərbaycan fortepiano mədəniyyətinin yalnız müəyyən tərəfləri işıqlandırılmışdır.

Beləliklə, aşkar olunmuşdur ki, Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin əhəmiyyəti elmi-nəzəri cəhətdən əsaslandırılmış şəkildə araşdırılmamışdır. Eləcə də Azərbaycan pianoçularının ifaçılıq və bəstəkar yaradıcılığı arasında əlaqələri, fərqli janrlarda təfsir üslubu, təhlilə cəlb edilən əsərlərin nəzəri və ifaçılıq mövqeyi müqayisəli və sistemli şəkildə təhlil edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan fortepiano ifaçılıq mədəniyyəti, predmeti isə Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin roludur.

---

[18] Axundova-Dadaşzadə, Z.A. Cavanşir Quliyev: Total musiqi axtarışlarında // – Bakı: Musiqi dünyası, – 2019. № 3 (80), – s. 8151-8173.

[19] Маилова, А.Г. Методика преподования профессора К.К.Сафар-Алиевой / А.Г.Маилова. – Баку: Элм вэ тахсил, – 2018. – 120 с.

[20] Məmmədova, V.C. Pianoçu Simuzər Quliyevanın elmi-pedaqoji fəaliyyəti. Dərs vəsaiti / V.C.Məmmədova. – Bakı: ADPU nəşriyyatı, – 2014. – 196 s.

[21] Hüseynova, K.Q. Musiqimizin Fərhadı / K.Q.Hüseynova. – Bakı: Adiloğlu, – 2007. – 351 s.

[22] Seyidov, T.M. Fərhad Bədəlbəylinin həyat və yaradıcılığı (məqalələr, rəylər, müsahibələr, materiallar) / T.M.Seyidov. – Bakı: Şərq-Şərb, – 2020. – 484 s.

[23] Xəlilova, S.H. Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında pianoçu Elmira Əliyevanın rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2014. – 238 s.

[24] Сафарова, Г.Н. Октай Абаскулиев. Творческий портрет педагога / Г.Н.Сафарова. – Баку: Улдуз, – 2005. – 126 с.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolunu və əhəmiyyətini müəyyən etməkdir. Məqsəddən çıxış edərək, aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

- Azərbaycan pianoçularının milli və dünya musiqi mədəniyyətində malik olduğu yeri müəyyən etmək;
- Azərbaycan fortepiano sənətinin inkişafında rus ifaçılıq məktəbinin roluna aydınlıq gətirmək;
- XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanların Azərbaycan pianoçularının ifaçılıq tərzinə təsirini müəyyən etmək;
- Rus fortepiano musiqisindəki ifaçılıq xüsusiyyətlərinin Azərbaycan fortepiano ifaçılığına təsirini aydınlaşdırmaq;
- Azərbaycan fortepiano ifaçılığı sənətində S.V.Raxmaninovun, A.N.Skryabinin, D.D.Şostakoviçin, S.S.Prokofyevin və İ.F.Stravinskinin fortepiano əsərlərinin təfsirini təhlil etmək və yeni ifaçılıq ünsürlərinin meydana gəlməsini işıqlandırmaq.

**Tədqiqat metodları.** Dissertasiyada Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolunu müəyyənləşdirmək üçün sistemli, tarixi, analitik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Dissertasiya işinin nəzəri-metodoloji əsasını Azərbaycan pianoçularının ifaçılıq xüsusiyyətlərini formalaşdıran prinsiplər təşkil edir. Burada tarixi və nəzəri metodlara əsaslanaraq, müxtəlif analitik təhlil metodları tətbiq olunmuşdur. Bu kontekstdə induktiv və didaktik metodlardan istifadə edilməklə ifadə olunan mövzu hərtərəfli və müqayisəli şəkildə araşdırılmışdır. Bu məqsədlə, Azərbaycan fortepiano ifaçılıq məktəbinin formalaşmasında mühüm əhəmiyyət kəsb edən M.Brenner, G.Şaroyev və Y.Zakın pedaqoji təcrübələrinə müraciət olunur. Tədqiqat işində Azərbaycanın musiqişünas alimlərindən Ü.Ə.Hacıbəyli[25], E.Ə.Abasova[26],

[25] Hacıbəyov, Ü.Ə. Azərbaycan musiqi həyatına bir nəzər // Ü.Hacıbəyov. Əsərləri. / – Bakı: Azərb. SSR Elmlər Akademiyası, – c.2. – 1965. – s. 215-225.

[26] Абасова, Э.А. Узеир Гаджибеков - путь жизни и творчества / Э.А.Абасова. – Баку: Элм, – 1985. – 200 с.

G.A.Abdullazadə[27], F.Ş.Əliyeva[28],[29], Ş.S.Həsənova[30] və Ü.İ.İmanovanın[31] müxtəlif istiqamətlər üzrə elmi-nəzəri tədqiqatlarından bəhrələnilmişdir. Eləcə də fortepiano musiqisi üzrə ifaçı mütəxəssislərdən T.M.Seyidov[32], K.Q.Hüseynova[33], A.H.Mayılova[34], V.C.Məmmədova[35], Ü.V.Hacıbəyova[36], İ.D.Hüseynova[37], xarici ölkə musiqişünaslardan B.V.Asafyev[38], L.A.Mazel[39], A.D.Alekseyev[40], L.Y.Qakkel[41],

---

[27] Абдуллазаде, Г.А. Философская сущность музыкального искусства / Г.А.Абдуллазаде. – Баку: Ишыг, – 1985. – 282 с.

[28] Əliyeva, F.Ş. Azərbaycan musiqisində üslub axtarışları / F.Ş.Əliyeva. – Bakı: Elm və həyat, – 1996. – 120 s.

[29] Əliyeva, F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə / F.Ş.Əliyeva. – Bakı: Elm, – 2007. – 314 s.

[30] Həsənova, Ş.H. Musiqi tarixindən mühazirələr / Ş.H.Həsənova. – Bakı: Adiloğlu, – c.2. – 2012. – 134 s.

[31] Иманова, У.И. Классицизм XX века и музыка Кара Караева: / автореферат дис. доктора философии по искусствоведению. / – Ташкент, 1990. – 28 с.

[32] Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[33] Hüseynova, K.Q. Musiqimizin Fərhadı / K.Q.Hüseynova. – Bakı: Adiloğlu, – 2007. – 351 s.

[34] Маилова, А.Г. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафар-Алиевой. / А.Г.Маилова. – Баку: Адильоглы, – 2003. – 466 с.

[35] Məmmədova, V.C. Azərbaycan fortepiano sənətinin inkişafında Simuzər Quliyevanın rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2013. – 162 s.

[36] Hacıbəyova, Ü.V. Azərbaycan bəstəkarlarının antologiyası layihəsi çərçivəsində piano üçün yazılmış əsərlərin antologiyası / Ü.V.Hacıbəyova. – Bakı: Elm və təhsil, – 2011. – 100 s.

[37] Hüseynova, İ.D. Azərbaycan musiqi sənətinin inkişafında Rus-Azərbaycan musiqi-mədəni əlaqələrinin rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2011. – 144 s.

[38] Асафьев, Б.В. Русская музыка XIX и начало XX века / Б.В.Асафьев. – Ленинград; Музыка, – 1979. – 344 с.

[39] Мазель, Л.А. Вопросы анализа музыки / Л.А.Мазель. – Москва: Советский композитор, – 1991. – 375 с.

[40] Алексеев, А.Д. Интерпретация музыкальных произведений (на основе анализа искусства выдающихся пианистов 20 в). Учебное пособие / А.Д.Алексеев. – Москва, – 1984. – 91 с.

[41] Гаккель, Л.Е. Фортепианная музыка XX века. Очерки. / Л.Е.Гаккель. – Москва: Советский композитор, – 1990. – 286 с.

L.A.Barenboym[42] və S.S.Skrebkovun[43] monoqrafiyalarında müxtəlif nəzəri məsələlər üzrə araşdırmalar və təhlillər tədqiqatın metodoloji əsasını təşkil edir. Bu əsərlərdə verilən təhlil metodları dissertasiyada sistemləşdirilmiş şəkildə tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində təqdim olunan əsas müddəalar aşağıdakılardır:

- Azərbaycan fortepiano sənətinin inkişafında rus ifaçılıq məktəbinin təsirinin ümumi səciyyəsinin işıqlandırılması;
- XX əsr rus bəstəkarlarının fortepiano əsərlərinin Azərbaycan ifaçılarının repertuarında təfsir xüsusiyyətlərinin araşdırılması;
- Azərbaycan ifaçılarının repertuarında S.V.Raxmaninovun, A.N.Skryabinin, D.D.Şostakoviçin, S.S.Prokofyevin və İ.F.Stravinskinin fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətlərinin təcəssümü;
- Rus bəstəkarlarının üslub xüsusiyyətlərinin fortepiano əsərlərinin təfsirində müəyyən edilməsi;
- Azərbaycan pianoçularının təfsirinin dünya ifaçıları kontekstində təhlili;
- Dramatik və lirik obrazlılığın, mürəkkəb texniki imkanların və virtuozluğun uzlaşması, əsərin melodik ifadəliliyinin səciyyəvi xüsusiyyətlərinin təcəssümü;
- Rus pedaqoqlarının ənənələrinin Azərbaycan fortepiano ifaçılığı məktəbində reallaşması və ifaçılıq imkanlarının tədqiqi;
- XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanların Azərbaycan pianoçularının ifaçılıq tərzində təzahürü.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolu ilk dəfə olaraq xüsusi tədqiqat obyektinə çevrilmiş və dissertasiya səviyyəsində öyrənilmişdir. Rus bəstəkarlarının fortepiano əsərlərinin Azərbaycan pianoçularının təfsirində araşdırılması nəticəsində milli ifaçılıq məktəbinin üslub xüsusiyyətləri müəyyən

---

[42] Баренбойм, Л.А. Музыкальная педагогика и исполнительство / Л.А.Баренбойм. – Ленинград: Советский композитор, – 1974. – 336 с.

[43] Скребков, С.С. Анализ музыкальных произведений / С.С.Скребков.– Москва: Музгиз, – 2019. – 302 с.

edilmişdir və əldə olunan qənaətlər aşağıdakı elmi yenilikləri əhatə edir:

– İlk dəfə olaraq Azərbaycan pianoçularının müxtəlif janrları əhatə edən repertuarına əsaslanılmış və onların ifaçılıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından nəzəri təhlil aparılmışdır;

– Dissertasiya mövzusunun əsas istiqamətini Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolunun təşkil edilməsinə baxmayaraq, milli ifaçılıq sənətində bir çox ifaçılar tərəfindən müraciət olunan əsərlər ətraflı şəkildə işıqlandırılmışdır;

– Azərbaycan pianoçularının formalaşmasında XX əsr rus musiqisinin rolu ilk dəfə olaraq geniş formada araşdırılmışdır. Burada S.V.Raxmaninovun, A.N.Skryabinin, D.D.Şostakoviçin, S.S.Prokofyevin, İ.F.Stravinskinin fortepiano əsərlərinin təfsiri Azərbaycan və rus ifaçıları ilə müqayisəli təhlillər şəklində aparılmışdır. Qeyd edək ki, Azərbaycan pianoçuları, N.K.Metner, A.S.Arenski, R.K.Şedrin, Q.İ.Ustvolskaya, N.K.Karetnikov, A.M.Volkonski, A.K.Vustin, V.A.Yekimovski, L.V.Nikolayev və digər bəstəkarların fortepiano əsərlərinə müraciət etsələr də, dissertasiyadakı təhlillər rus musiqisinin klassikləri olan S.V.Raxmaninov, A.N.Skryabin, D.D.Şostakoviç, S.S.Prokofyev və İ.F.Stravinskinin timsalında təqdim edilmişdir. Həyata keçirilən həmin müqayisəli təhlillər Azərbaycan fortepiano ifaçılığı mədəniyyəti tarixində ilk dəfə olaraq tətbiq olunmuşdur. Qeyd edək ki, təhlilə cəlb olunan bəstəkarların ardıcıllığı milli pianoçuların onların fortepiano əsərlərinə müraciət səviyyəsindən irəli gəlmişdir;

– İlk dəfə olaraq, Azərbaycan ifaçılarının formalaşmasında rus ifaçılıq məktəbinin nümayəndələrinin rolu və ənənələri müəyyən olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya işində əldə edilmiş nəticə və müddəalar musiqişünaslıq, həmçinin, fortepiano musiqisinin tarixi və Azərbaycan ifaçılıq sənətinin araşdırılması sahəsində fəaliyyət göstərən tədqiqatçılar üçün elmi mənbə kimi faydalıdır. Tədqiqatın materialları Azərbaycan fortepiano ifaçılıq mədəniyyətinin tarixi mənzərəsinin yaradılmasında, eləcə də bu sahədə araşdırmalar aparan tədqiqatçılar

üçün faydalıdır. Tədqiqat işi fortepiano ifaçılığının müasir istiqamətlərinin müəyyən edilməsində, Azərbaycan fortepiano ifaçılığı sənətinin tədrisində, eləcə də "Fortepiano ifaçılığı tarixi" və digər fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslardakı çıxışlarda, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə çap olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, beş paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın struktur bölmələrində giriş 10 səhifə (15 525 işarə), I fəsil 38 səhifə (70 493 işarə), II fəsil 78 səhifə (118 934 işarə), nəticə isə 6 səhifədən (10 011 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olunmaqla 132 səhifə və 214 963 işarəni əhatə edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "Azərbaycan fortepiano məktəbinin tarixi və onun inkişaf mərhələlərinin xüsusiyyətləri"** adlanır və iki paraqrafdan ibarətdir. **1.1. "Azərbaycan fortepiano sənətinin inkişafında rus ifaçılıq məktəbinin rolu"** adlı paraqrafda Azərbaycan pianoçularının yetişdirilməsində rus fortepiano ifaçılığı məktəbini təmsil edən müəllimlərin fəaliyyəti və tədris prinsiplərindən bəhs edilir. Nəzərə çatdırılır ki, 1895-ci ildə Bakıda

ilk dəfə xüsusi peşəkar musiqi məktəbini açan A.N.Yermolayeva 1901-ci ildə bu məktəbin bazasında musiqi sinifləri yaradır. Burada fortepiano sinifləri aparıcı əhəmiyyət kəsb edir. 1915-ci ildə isə Bakıya dəvət olunan Odessa Konservatoriyasının professoru, pianoçu Y.A.Rıjınskinin təşəbbüsü ilə musiqi sinifləri musiqi məktəbi ilə əvəz olunduqda qısa bir müddətdə G.G.Şaroyev, A.A.Aleksandrov və digər pianoçular Bakıya dəvət edilir. Ü.Hacıbəylinin təşəbbüsü ilə Azərbaycanda ali musiqi təhsili sahəsinə diqqət artırılır və professional musiqi təhsil sistemi yaradılırdı. Konservatoriyanın yaradıldığı ilk illərdə rektor və fortepiano sinfinin rəhbəri kimi çalışan Moskva Konservatoriyasının yetirməsi M.L.Presman, digər rektor Peterburq Konservatoriyasının məzunu İ.S.Aysberq, pianoçu və pedaqoq G.G.Şaroyev Azərbaycan fortepiano ifaçılıq mədəniyyətinin əsasını qoyan şəxsiyyətlər idi.

G.G.Şaroyevin Azərbaycanın fortepiano sənətinin inkişafında çox mühüm tarixi xidmətləri olmuş və çoxsaylı pianoçuları yetişdirmişdir. O, 1919-cu ildə Bakı Musiqi Məktəbinin direktoru, məşhur pianoçu N.D.Nikolayevin dəvəti ilə Azərbaycana gəlmişdir. G.Şaroyev məşğələlərində ədəbiyyat və incəsənətə dair maraqlı söhbətlər aparır, bu sahədən misallar gətirərək ifa edilən əsər ətrafında paralellərə, bənzətmələrə müəyyən yer verirdi. Onun pedaqoji repertuarında dünya klassikası ilə yanaşı, Azərbaycan bəstəkarlarının əsərlərinə də geniş yer vermişdir. Təsadüfi deyildir ki, elmi-metodik işi Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığı mövzusunda olmuş, burada bir çox əsərləri nəzəri baxımdan araşdırmış və ritmik harmonik üslubunun xüsusiyyətlərini təhlil etmişdir. G.Şaroyev, ilk növbədə, əsəri əvvəlcə pedalsız öyrənməyi məsləhət görürdü. Burada əsas məqsəd daha yaxşı leqato əldə edilməsinə nail olmaqdır. G.Şaroyevin maraqlı tövsiyələrindən biri də əsərin başlanğıcda piano dinamikası ilə öyrənilməsidi. G.Şaroyev bəzən applikatura variantının seçimini tələbənin öz ixtiyarına buraxırdı. Onun pedaqogikasında tələbələrinə “yaradıcı ifa” tərzinin təlqin edilməsi aparıcı xətti təşkil edirdi. Xırda texnika üzərində özəl iş, alətin həzin tərzdə oxunuşu, zərif nüansların verilməsi və əsərin bədii mənasının ön planda durması onun metodikasının özəyini təşkil edir. G.Şaroyevin ilk yetirmələri

arasında K.Səfərəliyeva, L.N.Yeqorova, E.Nəzirova, Y.İ.Perevertaylo, V.Mustafazadə olmuşdur.

G.Şaroyevlə yanaşı, Azərbaycanda fortepiano pedaqogikasının banilərindən biri də M.R.Brenner hesab olunur. Sankt-Peterburq Konservatoriyasının məzunu olan M.R.Brennerin fəaliyyəti sayəsində 1930-cu illərdən başlayaraq, Azərbaycan Dövlət Konservatoriyasında böyük bir ifaçı nəsli yetişmişdir. M.Brenner Bakıya Ü.Hacıbəyli tərəfindən dəvət olunmuşdur. O, nəinki gözəl pedaqoq, həm də maraqlı təfsirçi olmuşdur. Yüksək artistizmə, pianoçuluq ustadına malik bu ifaçının çalğısı klassik planlı olub, hər cür pafosdan uzaq idi. Azərbaycan pianoçuluq məktəbinin görkəmli nümayəndələrindən biri olan F.Bədəlbəylinin konservatoriyada təhsil alarkən pianoçu kimi formalaşaraq püxtələşməsində M.Brennerin müstəsna xidmətləri vardır. M.R.Brenner məktəbinin davamçıları olan R.Atakişiyev, Z.Adıgözəlzadə, U.Xəlilov, T.Seyidov, O.Abasquliyev, A.Ələsgərov və bir çox digər pianoçular pedaqoji sahədə böyük nailiyyətlər nümayiş etdirərək pianoçuların yeni nəslini yetişdirmişlər.

G.G.Şaroyev və M.R.Brenner Azərbaycan milli fortepiano məktəbinin bünövrəsini qoymuşlar. Rus ifaçılıq məktəbini təmsil edən pedaqoqlar Azərbaycan fortepiano məktəbinin formalaşmasına təsir etməklə yanaşı, eyni zamanda onun inkişaf yollarını da müəyyənləşdirmişlər.

**1.2. "XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanların Azərbaycan bəstəkarlarının əsərlərində təzahürü"** adlanır. Bu paraqrafda Azərbaycan pianoçularının fəaliyyətində müxtəlif cərəyanların təsiri haqqında məlumat verilir. Hal-hazırda Azərbaycanda kamil və püxtələşmiş fortepiano ifaçılıq məktəbi yaranmışdır. Avropa və rus ifaçılıq məktəbinin ən mütərəqqi ənənələrini mənimsəyən və uzun bir inkişaf yolu keçən Azərbaycan fortepiano mədəniyyəti öz xüsusiyyətləri ilə fərqlənir. 1950-ci illərə qədər olan dövr Avropa mənşəli alət olan fortepianonun ilk başlanğıcda həvəskar ifa ilə bağlılığı, musiqi təhsilinin inkişafı, fortepiano təhsili və yaradıcılığının təşəkkülündə Ü.Hacıbəylinin tarixi əhəmiyyəti M.Presman, İ.Aysberq, G.Şaroyev, M.Brenner, K.Səfərəliyeva kimi pianoçu-pedaqoqların fəaliyyəti ilə bağlıdır. 1950-1970-ci illərdə fortepiano ifaçılığı sənətində aparıcı pianoçu-

pedaqoqların fəaliyyət dairəsi daha genişlənmiş və Azərbaycan professional fortepiano sənəti daha geniş vüsət almışdır. Xüsusilə bəstəkar yaradıcılığında nəzərə çarpan cərəyanlar fortepiano ifaçılığına nüfuz edir. XX əsrin 60-cı illərində bu sahədə irəliləyişlər nəzərə çarpır. Bu dövrdə Q.Qarayevin yaradıcılığında psixoloji və intellektual başlanğıca geniş yer verilir, milli musiqinin xüsusiyyətləri müasir musiqi təfəkkürü ilə üzvi surətdə qovuşur. Q.Qarayevin "24 prelüd" silsiləsinin dördüncü dəftərində bu təmayül özünü qabarıq şəkildə göstərir və neoklassisizmə maraq nəticəsində xətti-polifonik yazı üslubundan geniş istifadə edilir. Sonata janrında S.Prokofyev, D.Şostakoviçin əsərlərinin təsiri özünü büruzə verir və C.Hacıyev, V.Adıgözəlov, A.Əlizadə, M.Mirzəyevin sonataları buna nümunədir. F.Qarayevin hələ tələbəlik illərində bəstələdiyi sonatinası (1963) XX əsrin musiqisi üçün səciyyəvi olan neoklassik üslubun təsiri nəticəsində yaranmışdır. F.Qarayevin fortepiano üçün Birinci sonatasının (1965) ikinci hissəsində fuqa xüsusiyyətləri tətbiq edilmiş və İ.Stravinski ilə S.Prokofyevin fortepiano üslubuna yaxınlıq özünü büruzə vermişdir. F.Qarayevin fortepiano üçün İkinci sonatasında (1967) puantilizm seriya texnikasının bir növü kimi tətbiq edilmişdir. XX əsrin yeni texnika üslublarından biri olan dodekafoniya-seriya texnikasından Azərbaycan musiqisində ilk dəfə Q.Qarayev 1960-cı illərdə istifadə edərək, yeni bir mərhələ açmışdır. F.Əlizadə "Alban Berqin xatirəsinə Sonata"sında (1969) böyük məharət və ustalıqla seriya texnikasını klassik forma ilə növbələşdirmişdir. F.Əlizadənin sonatası Yeni Vyana məktəbinin nümayəndəsi Alban Berqin musiqi üslubunun bəzi xüsusiyyətlərini özündə cəmləşdirir. XX əsr musiqisi üçün səciyyəvi olan neoklassik təmayül 60-cı illərdə fortepiano musiqisinin kiçik həcmli janrlarına da öz təsirini göstərmişdir. Belə ki, Q.Qarayevin "Orta çətinlikdə altı pyes" məcmuəsindəki bir sıra pyeslərdə neoklassik üslubun elementləri təzahür edir. Bəstəkarların fortepiano musiqisi sahəsində intensiv axtarışları ardıcıl şəkildə 1970-90-cı illərdə davam etdirilir. Bu dövrdə ifaçılıq sənətində görkəmli pianoçu F.Bədəlbəylinin fəaliyyətindən xüsusi söz açılmalıdır. Həmin dövrdə hələ çox gənc olan F.Bədəlbəylinin 1967-ci ildə Çexoslovakiyada (indiki Çexiya), 1968-ci ildə Lissabonda keçirilən beynəlxalq müsabiqələrdə uğurlu

çıxışları Azərbaycanı bütün beynəlxalq aləmdə tanıtdı. F.Bədəlbəyli öz zəngin repertuarı ilə XX əsr fortepiano musiqisində mövcud olan müxtəlif cərəyanları dərindən mənimsəyərək öz təfsirində canlandıra bilmişdir. İ.Hacıbəyovun neoklassik üslubda bəstələnmiş "Vatto ruhlu eskizlər" əsəri F.Bədəlbəylinin təfsirində xüsusilə fərqlənir. XX əsrin 80-ci illərində P.Hindemitin "Ludus tonalis" polifonik silsiləsinə bir sıra cəhətlərinə görə bənzəyən fortepiano əsərindən biri də X.Mirzəzadənin "Ağlar və qaralar" silsiləsidir. R.Həsənovanın "Meyxana" (1996) fantaziyası XX əsrin II yarısında yayılan digər bir istiqamət – minimalizmdən bəhrələnir. XX əsrin müasir ifaçılıq üsullarından bəhrələnən əsərlərdən biri də Şərq-Qərb sintezinin ifadə olunduğu C.Quliyevin fortepiano üçün "Muğam ladlarında interlüdlərlə yeddi pyes" (1980) silsiləsidir. A.Əzimovun "La makam" adlı fortepiano əsəri (1980) milli musiqi təfəkkürü ilə müasir bəstəkarlıq texnikasının sintezinin bariz nümunəsidir. XX əsr Azərbaycan musiqisində fortepiano ifaçılıq sənətinə müasir cərəyanların təsirindən bəhs edərkən caz sənətini də vurğulamaq lazımdır. V.Mustafazadə, R.Babayevin caz improvizasiyaları XX əsrin 60-cı illərindən başlayaraq şöhrət qazanır.

Dissertasiyanın **II fəsli "XX əsr rus bəstəkarlarının fortepiano əsərlərinin Azərbaycan ifaçılarının repertuarında təfsir xüsusiyyətləri"** adlanır və üç paraqrafdan ibarətdir. **2.1. "Azərbaycan ifaçılarının repertuarında S.V.Raxmaninovun və A.N.Skryabinin fortepiano əsərlərinin təfsiri"** adlanır. Bu paraqrafda milli pianoçuların təfsirində S.V.Raxmaninovun və A.N.Skryabinin fortepiano əsərlərinin xüsusiyyətləri araşdırılır. S.S.Raxmaninovun musiqisi Azərbaycan pianoçularının repertuarında əsas yer tutur. Bəstəkarın iri miqyaslı fortepiano konsertləri, prelüd və etüd-lövhələri, bir çox miniatürləri Azərbaycan fortepiano ifaçılıq sənəti tarixində bir çox ifaçıların təfsirində səslənmişdir. Azərbaycan dinləyicilərinin diqqətini bəstəkarın əsl milli rus ənənələrində yazılmış fortepiano əsərlərinin orijinal üslubu cəlb edirdi.

XX əsrin əvvəllərində S.V.Raxmaninov Bakıya iki dəfə qastrol səfərinə gəlmiş və bəstəkar öz ifası ilə dinləyicilərdə çox xoş təəssüratlar yaratmışdır. Azərbaycan fortepiano ifaçılığı sahəsində S.Raxmaninovun əsərləri, ilk növbədə, pianoçu-pedaqoq

M.R.Brennerin repertuarında geniş yer almışdır. Belə hesab etmək olar ki, Brenner Azərbaycan musiqisində S.Raxmaninov yaradıcılığına müraciət edən ilk ifaçıdır. S.Raxmaninovun fortepiano əsərlərinin parlaq təfsirçisi olan F.Bədəlbəyli yaradıcılığının ilk dövrlərindən başlayaraq yüksək patetikası, parlaq virtuozluğu və zəngin emosionallığı ilə səslənən ifaları seçilmişdir.

Y.Axundova S.Raxmaninovun əsərlərinin ifaçısı olmaqla yanaşı, eyni zamanda repertuarına daxil olan əsərlər haqqında bir sıra elmi-metodiki işlərin də müəllifidir.

Müxtəlif illərdə R.Atakişiyev, R.Quliyev, E.Səfərova, T.Mahmudova, M.Adıgözəlzadə, Y.Sayutkin, və digər ifaçılar Raxmaninovun əsərlərinə müraciət edərək, bəstəkarın musiqisini fərqli təfsirlərdə təqdim etmişlər.

A.N.Skryabinin fortepiano yaradıcılığı Azərbaycan pianoçularının repertuarında əsas yer tutumuşdur. F.Bədəlbəyli, Y.Axundova, S.Mirzəyev və digər pianoçuların Skryabin musiqisində olan incə melodikliyi yüksək peşəkarlıqla ifa emişlər. F.Bədəlbəyli Skryabinə xas pianizmi çox gözəl hiss edir və Skryabinin fortepiano əsərlərini ifa edərkən, onun fakturasının yeni cəhətlərini, artikulyasiya, pedalizasiya, ritmin ifaçılıq şərhini çox dəqiqliklə vermişdir. Y.Axundovanın "Prometey" simfonik poemasında ifası gözəl ahəngdar, virtuoz partiya, nəhəng partiturasının, işıq simfoniyasının özəlliyini parlaq şəkildə nümayiş etdirir. Y.Sayutkin A.Skryabinin prelüd, etüd, sonata və poemalarının maraqlı təfsirlərini yaratmışdır. Onun ifasında op.16 silsiləsindən beş prelüd və iki poema A.Skryabinin musiqisi üçün səciyyəvi olan kəskin təzadları – lirika və coşğun-qəhrəmani yüksəlişi özündə parlaq boyalarla əks etdirir. S.Mirzəyev A.Skryabinin op.8 silsiləsindən №9 və №11 etüdləri, "Qirlyandı" pyesini (op.73, №1) ifa etmişdir. S.Mirzəyev etüdlərin ifası zamanı gərgin inkişafın və oktavalı hərəkətə əsaslanan melodik inkişaf xəttinin göstərilməsinə üstünlük verir.

**2.2. "D.D.Şostakoviçin və S.S.Prokofyevin fortepiano əsərlərinin Azərbaycan ifaçılığında təfsir xüsusiyyətləri"** adlanır. Bu paraqrafda Azərbaycan fortepiano mədəniyyətində D.D.Şostakoviçin və S.S.Prokofyevin fortepiano əsərlərinin ifaçılıq

xüsusiyyətlərindən bəhs edilir. Dərin fəlsəfi simfoniyaların, yarandığı dövrdə böyük diskussiya doğuran musiqili-səhnə əsərlərinin müəllifi olan D.Şostakoviç öz yaradıcılığında hələ ilk dövrdən başlayaraq fortepiano musiqisinə böyük diqqət yetirmişdir.

Azərbaycan pianoçularının D.Şostakoviçin fortepiano musiqisinə marağı 1970-ci illərdən başlayaraq güclənmişdir. F.Bədəlbəyli Moskva Dövlət Konservatoriyasının aspiranturasında təhsil aldığı dövrdə Portuqaliyaya səfər edir. Burada B.Bartok, Q.Qarayevin əsərləri ilə yanaşı, D.Şostakoviçin d-moll prelüd və fuqasını (№24) ifa edir. E.Səfərovanın keçirdiyi sinif konsertlərindən biri də D.Şostakoviçin "24 prelüd və fuqa" məcmuəsinə həsr olunmuşdur. M.Rostropoviçin təşəbbüsü ilə 2006-cı ildə Bakıda keçirilən D.Şostakoviçin 100 illiyinə həsr olunmuş festivalda F.Bədəlbəyli və M.Adıgözəlzadə bəstəkarın kamera əsərlərinin fortepiano partiyasını ifa etmişdir. D.Şostakoviçin fortepiano ilə orkestr üçün №1 konserti (op.35, c-moll) Y.Axundova təfsirində bəstəkarın üslub xüsusiyyətlərinin canlandırılmasına əsaslanır. Ümumiyyətlə, D.Şostakoviçin fortepiano üçün əsərlərində pianoçuları cəlb edən əsas cəhətlərdən biri onların obraz zənginliyidir. Bəstəkar bu əsərlərində həyatı müxtəlif rakurslardan görür. Yüksək intellektuallıq və logika da bəstəkarın nəzər diqqətindən kənarda qalmır

F.Bədəlbəyli Azərbaycan fortepiano ifaçılığı tarixində S.Prokofyevin yaradıcılığına ən çox müraciət edən pianoçulardan biridir. S.Prokofyevin "Ötəri anlar", "Sarkazmlar" silsiləsi, fortepiano üçün üçüncü, altinci və səkkizinci sonataları, fortepiano ilə orkestr üçün №1 konserti F.Bədəlbəylinin repertuarında ən sevilən əsərlərdəndir. M.R.Brennerin yetirməsi olan F.Bədəlbəyli S.Prokofyev musiqisinin təfsirində öz müəllimindən əxz etdiyi bütün ənənələri həyata keçirərək, yaradıcılıq fantaziyasının zənginliyini tətbiq etmişdir. Bəstəkarın kvintetini (g-moll, op.57) ifa edən M.Adıgözəlzadə fortepiano partiyasına xas olan lakonikliyi aydın ifadə edir, faktura sadəliyini, polifonik xüsusiyyətləri dəqiq şəkildə açır. M.Adıgözəlzadə S.Prokofyevin fortepiano ilə orkestr üçün №2 konsertində (op.16, g-moll) obraz məzmunu və bəstəkara xas olan lirikanı parlaq şəkildə əks etdirmişdir.Y.Axundova D.Şostakoviçin

fortepiano ilə orkestr üçün №1 konsertinin parlaq təfsirini yaratmışdır. Onun ifasında ciddi, klassik və yüngül melodiyaların qarşılaşması, ağır hissənin elegik əhval-ruhiyyəsi, finalın şənliyi, zarafat ruhu çox aydın şəkildə göstərilir. S.Mirzəyev S.Prokofyevin "Qoca nənənin nağılları" silsiləsindəki (op.31) lirik pyesləri poetik lövhələr şəklində canlandırır. Buradakı işıqlı lirika, yumşaq nəqli xarakter pianoçunun ifasında detallaşmış şəkildə göstərilir. İstedadlı pianoçu, Beynəlxalq müsabiqələr laureatı Toğrul Hüseynli S.Prokofyevin fortepiano ilə orkestr üçün Üçüncü konsertini (op.26, a-moll) yüksək peşəkarlıqla ifa etmişdir.

**2.3. "İ.F.Stravinskinin neofolklorizm üslubunun Azərbaycan fortepiano mədəniyyətində yeni ifaçılıq üsullarını yaratması"** adlı paraqrafda İ.Stravinskinin fortepiano əsərlərinin təfsirindən bəhs edilir. S.Raxmaninov, A.Skryabin, D.Şostakoviç və S.Prokofyevin musiqisi ilə müqayisədə, İ.Stravinskinin əsərləri Azərbaycan pianoçularının repertuarında nisbətən az rast gəlinir. İ.Stravinskinin fortepiano əsərlərindən ən çox "Petruşka"nın transkripsiyasına müraciət edilmişdir. Azərbaycan musiqisində Stravinski yaradıcılığına müraciət edən pianoçulardan biri Samir Mirzəyevdir. Bu virtuoz əsər İ.Stravinskinin yaradıcılığında iki dövrün – rus və neoklassisizm dövrünün ayrıcında yaranmışdır. Texniki baxımdan şox mürəkkəb olan əsərdə fortepiano zərb aləti kimi səciyyələndirilir. Bu əsərdəki yeni üsullar S.Prokofyev və B.Bartokun fortepiano musiqisi ilə eyni cərgədə dayanır.

S.Mirzəyevin təfsirində "Petruşka" transkripsiyasının üç fraqmetindən hər biri ("Rus rəqsi", "Petruşkanın yanında", "Maslenisa") mükəmməl şəkildə səslənir. Bu ifada martellato üsulu, rus xalq mahnılarının ("Ах, вы сени", "Вдоль по Питерской") ahəngdarlığı, qlissando və tremololar, atılmış akkordlar, ağır və şəffaf faktura çox aydın tərzdə ifadə olunur. Pianoçu dinamika və geniş pedalı məharətlə canlandırır. Əsərin mürəkkəbliyi ondadır ki, fortepianonun yeganə klaviaturasında bütün orkestrin səsləndirilməsi nəzərdə tutulmuşdur. Məlum olduğu kimi, Stravinski fortepiano alətinin spesifikasını çox gözəl bilirdi və onu instrumental şərh edirdi. Sadəlik və eyni zamanda möhtəşəmlik, təzadlı tembr dinamikası ilə yanaşı, səslənmədə incə nüansların verilməsi "Petruşka"nın ən

gözəçarpan xüsusiyyətləridir. S.Mirzəyevin ifasında bu sadalanan xüsusiyyətlər çox qabarıq şəkildə verilir. O, İ.Stravinskinin fortepiano musiqisinin üslubunu, onun özəlliyini dərindən duyub canlandırmağa nail olmuşdur. S.Mirzəyevin ifasında "Petruşka"dakı registrlərin təzadlı qarşılaşması, onların fərdi səslənmə spesifikası çox qabarıq verilir. Pianoçu ifa zamanı hər səsin konkret ifadəliliyinə nail olmağı məharətlə bacarır. Bayramsayağı xalq səhnəsinin dinamikası və qeyri-adi təsvirilik pianoçunun ifasının aparıcı cəhətləridir.

Dissertasiyanın **Nəticə** bölməsində Azərbaycan fortepiano mədəniyyətinin inkişafında rus ifaçılıq məktəbi nümayəndələrinin rolunun hərtərəfli olması vurğulanır, orijinal ifaçılıq üslubu ilə seçilən pedaqoq-ifaçıların bədii məqsədləri, metodoloji təmayülləri, repertuar seçimi aşkar edilərək müəyyənləşdirilir. Həmçinin müxtəlif janrlı əsərlərdə obraz, forma, ifadə vasitələri və yazı üsullarının nəzərdən keçirilməsi və bu aspektlərin müxtəlif illərdə yaranan əsərlərdə təkamülünün mühüm əhəmiyyət kəsb etməsi nəzərə çatdırılır.

Qeyd olunmuşdur ki, hər bir ifaçının özünəməxsus pedaqoji iş prinsipləri və təcrübəsi onun repertuar seçimində və tələbələrə münasibətində də hiss olunur. G.Şaroyev tələbələrini (K.Səfərəliyeva, L.Yeqorova, E.Nəzirova, V.Mustafazadə) daha çox ifaçılıq fəaliyyəti üçün hazırlamağa üstünlük verərək, yaradıcı yanaşma göstərməyi aşılayırdı. Onunla eyni dövrdə fəaliyyət göstərən M.Brenner (F.Bədəlbəyli, C.Muradova) isə pafoslu ifadan uzaq olub, əsasən artistlik qabiliyyəti və ifaçılıq imkanlarını nümayiş etdirməyə qadir olan ifaçılar yetişdirirdi. Bu baxımdan yanaşdıqda, dissertasiyada Azərbaycan fortepiano məktəbinin formalaşmasında mühüm rol oynayan rus ifaçılıq məktəbi nümayəndələrinin rus və Qərbi Avropa musiqi mədəniyyətinə əsaslanan professional təcrübəsi, eyni zamanda milli ənənələrlə ayrılmaz surətdə bağlılığı və fortepiano ifaçılığı sənətinin milli musiqi yaradıcılığının inkişafında yeni bir mərhələ olması işıqlandırılmışdır. Qeyd edək ki, tanınmış Azərbaycan pianoçularının, xüsusilə F.Bədəlbəylinin yaradıcılıq fəaliyyətinin tarixi əhəmiyyəti ilə yanaşı, onların yetişdirmələri olan ifaçıların (Y.Sayutkin, M.Adıgözəlzadə) da konsert repertuarı

araşdırılmış və ifa etdikləri müəyyən əsərlər müqayisəli şəkildə tədqiq olunaraq nəzərə çatdırılmışdır.

Təhlilə cəlb edilən rus bəstəkarlarının (S.Raxmaninov, A.Skryabin, D.Şostakoviç, S.Prokofyev, İ.Stravinski) fortepiano əsərləri həm Azərbaycan pianoçularının (F.Bədəlbəyli, Y.Axundova, M.Adıgözəlzadə, S.Mirzəyev, Y.Sayutkin), həm də dünya ifaçılıq sənətinin nümayəndələrinin (V.Horovits, D.Matsuyev, N.Luqanski, X.Buniatişvili) yaradıcılığında müqayisəli şəkildə araşdırılaraq, müxtəlif təfsirlərdə olan fərqliliklər üzə çıxarılmışdır. Rus ifaçılıq məktəbi ənənələrinə əsaslanan Azərbaycan pianoçuları üçün sadəlik, əsərin bədii obrazının hərtərəfli açılması, kulminasiya hissələrində parlaq emosionallığın nümayiş etdirilməsi müşahidə edilir.

Tədqiqat işində Azərbaycan pianoçularının fəaliyyətində rus bəstəkarlarının təsirindən bəhs edərkən bir sıra qənaətlərə gəlinmişdir:

1. Azərbaycan pianoçularının formalaşmasında rus ifaçılıq məktəbinin nümayəndələrinin rolu mühümdür və bu baxımdan A.Yermolayevadan başlayaraq, G.Şaroyev, M.Brenner milli ifaçılıq məktəbinin formalaşmasında mühüm amil kimi rus bəstəkarlarının əsərlərinin tədrisinə üstünlük vermişlər. Tədqiqatda rus ifaçılıq məktəbi təcrübəsinə əsaslanaraq, Azərbaycan milli pianoçuluq məktəbi ənənələrinin formalaşması, onların dünya musiqi mədəniyyətində özünəməxsus yer tutması müəyyən edilir. Rus ifaçılıq məktəbinin rolu əsas etibarilə rus bəstəkarlarının əsərlərinin tədris repertuarına daxil edilməsi və ifaçılıq xüsusiyyətlərinin öyrənilməsi ilə aşkarlanır.

2. Tədqiqat işində XX əsrdə rus fortepiano musiqisindəki mövcud olan ifaçılıq xüsusiyyətlərinin Azərbaycan pianoçularının fəaliyyətinə olan təsiri araşdırılır. Belə ki, milli pianoçuların ifasında S.V.Raxmaninovun, A.N.Skryabinin, D.D.Şostakoviçin, S.S.Prokofyevin və İ.F.Stravinskinin fortepiano əsərlərinin təfsirini təhlil edərkən, bədii obrazlılığın qabardılması, faktura, artikulyasiya, pedalizasiya kimi xüsusiyyətlərə üstünlük verilməsi müəyyən edilir.

3. Rus bəstəkarlarının fortepiano əsərlərinin təfsirində ifa olunan əsərin nəzəri təhlili və ifaçılıq xüsusiyyətlərinin əsas yer tutması, hər bir bəstəkarın üslub cəhətlərinin nəzərə alınması və

bundan irəli gələrək obraz-emosional məzmunla əlaqədar ifaçılıq xüsusiyyətləri işıqlandırılır.

4. Təfsiri zamanı hər hansı bir musiqi obrazının xarakterinin müəyyənləşməsində ifaçılıq üsulları ifadə olunur və əsərin təfsirinə kompleks şəkildə yanaşmanın mövcudluğu: temp, ritm, dinamika, tembr və digər əsas vasitələrin nəzərə çatdırılır.

5. S.V.Raxmaninovun fortepiano əsərlərinin təfsiri zamanı dramatik və lirik obrazlılığın qovuşması, mürəkkəb texniki imkanlar və virtuozluğun uzlaşması, əsərin melodik ifadəliliyinin üstünlüyü nəzərə çarpır. Bu baxımdan Azərbaycan pianoçuları (F.Bədəlbəyli, R.Quliyev, Y.Axundova, M.Adıgözəlzadə və digərləri) S.Raxmaninovun fortepiano yaradıcılığının (fortepiano konsertləri, etüd-lövhə və musiqi anları, prelüdləri və s.) orijinal üslubunu təcəssüm etdirməyə nail olmuşlar.

6. A.N.Skryabinin fortepiano yaradıcılığı üçün səciyyəvi olan melodik ifadəlilik və incəlik, sərbəst ritmik xüsusiyyətlər Azərbaycan pianoçularının da təfsirində saxlanılmışdır. Xüsusilə bəstəkarın prelüdləri üçün səciyyəvi olan lirik-poetik obrazlılığın faktura ilə uzlaşdırılmasının göstərilməsi Skryabinin fortepiano əsərlərinə müraciət edən milli pianoçuların (F.Bədəlbəyli, Y.Axundova, S.Mirzəyev) təfsirində saxlanılır.

7. D.D.Şostakoviçin Azərbaycan musiqisi ilə bağlılığı onun fortepiano əsərlərinin milli pianoçuların repertuarına daxil olmasını şərtləndirmişdir. Bəstəkarın fortepiano əsərləri üçün səciyyəvi olan təzadlılıq, təmkinli lirika, registr qarşılaşdırmaları Azərbaycan pianoçularının (Y.Axundova, M.Adıgözəlzadə) təfsirində öz əksini tapmışdır.

8. S.S.Prokofyevin fortepiano əsərlərində müşahidə olunan lakonik melodika, tempin hərəkətliliyi və ritmik dəqiqlik Azərbaycan pianoçularının diqqət etdiyi ən vacib məqamlardandır. Xüsusilə bu cəhət repertuarında S.Prokofyevin fortepiano əsərlərinin üstünlük təşkil etdiyi F.Bədəlbəylinin təfsirində daha çox nəzərə çarpır. Həmçinin, Prokofyevin fortepiano üslubunu müəyyənləşdirən sadəlik və incə lirizm, parlaq virtuozluq müxtəlif dövrlərdə onun əsərlərini ifa edən pianoçuların (S.Quliyeva, M.Adıgözəlzadə, S.Mirzəyev) da ifa tərzində saxlanmışdır.

9. İ.F.Stravinskinin fortepiano əsərlərinin üslubu Azərbaycan pianoçularının ifaçılıq xüsusiyyətləri üçün qeyri-səciyyəvi olsa da, bəstəkarın alətin imkanlarına mükəmməl bələd olması onun əsərlərinə müraciət edilməsini şərtləndirir. Azərbaycan pianoçuları Stravinskinin neofolklorizm xüsusiyyətlərini əks etdirən fortepiano əsərlərində təzadlı tembr dinamikasını və müxtəlif registrlərin qarşılaşdırılmasını, poliritmikanı daha aydın tərzdə nümayiş etdirmişlər.

10. Azərbaycan pianoçuları rus bəstəkarlarının əsərlərinin təfsiri zamanı hər bir bəstəkarın yaradıcılığına xas olan düşüncə tərzinin və fərdiliyin ifaçı tərəfindən formalaşdırılması və bununla münasibətdə ifaçılıq üsullarının müəyyənləşdirilməsinə üstünlük vermişlər. Xüsusilə, pianoçunun ifaçılıq xüsusiyyətlərindən irəli gələrək, əsərin təfsiri zamanı fərdi yanaşmasının ənənələrə əsaslanması və bunun üzərində öz ifasının səsləndirilməsi müşahidə olunmuşdur.

11. Azərbaycan fortepiano mədəniyyətinə rus ifaçılıq məktəbinin təsiri tədris metodları və prinsiplərdə əks olunmuşdur. Azərbaycan fortepiano pedaqogikasının müxtəlif pianoçuluq məktəbləri ilə varislik əlaqələrini aşkar edərkən, bu dövrdə fəaliyyət göstərən hər bir müəllimin yaratdığı ənənələri qeyd etmək lazımdır. Belə ki, A.Yermolayeva ilə başlayan musiqi tədrisi sonrakı dövrlərdə G.Şaroyev, M.Brenner və Y.Zak tərəfindən milli pianoçuların yetişdirilməsində mühüm amil olmuşdur. Onların yaratdığı tendensiya Azərbaycan pianoçularının pedaqoji yaradıcılığında qarşılıqlı şərtlənir və bir-birindən asılı olaraq fərdi təzahürlərin çoxluğunda realizə olunaraq, ənənələr üzərində qurulan məktəbi yaradır. Sonrakı nəsil pianoçu-pedaqoqlar məhz bu ənənələrdən bəhrələnərək, milli fortepiano məktəbinin təşəkkülündə mühüm əhəmiyyət kəsb etmişlər. K.Səfərəliyeva, N.Usubova, F.Quliyeva, E.Nəzirova və O.Abasquliyev kimi pianoçu-pedaqoqlar tədris zamanı musiqi intellektinin formalaşmasına, eləcə də əsərin bədii qanunauyğunluqlarının, inkişaf məntiqinin və üslub xüsusiyyətlərinin dərk edilməsinə üstünlük verir.

12. Rus bəstəkarlarının əsərlərinin ən parlaq təfsirçisi olan F.Bədəlbəylinin fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Görkəmli pianoçunun yaradıcılığı bilavasitə milli və rus bəstəkarlarının ən mürəkkəb əsərlərinin təfsirinə əsaslanır. O, pedaqoji fəaliyyətində də

milli pianoçuluq sənətinin inkişafına təkan verərək, milli kadrların yetişdirilməsində rus bəstəkarlıq məktəbinin əsərlərinin təfsirinə əsaslanmışdır. M.Adıgözəlzadə, Y.Sayutkin kimi tanınmış ifaçılar öz fəaliyyətlərində F.Bədəlbəylidən əxz etdikləri cəhətləri davam etdirirlər. Bu cəhətlər isə rus bəstəkarlarının əsərlərinin təfsiri zamanı Azərbaycan ifaçıları tərəfindən ənənələrə əsaslanmada, müasir düşüncə tərzi baxımından yanaşmada və bundan irəli gələrək, ifaçılıq xüsusiyyətlərinin müəyyənləşdirilməsində nəzərə çarpır. F.Bədəlbəyli öz təfsirində təqdim etdiyi rus bəstəkarlarının əsərlərini, xüsusilə S.Raxmaninovun bir çox fortepiano əsərlərini ifa edərkən ənənələrə əsaslanır. Rus bəstəkarlarının, xüsusilə S.Raxmaninov və A.Skryabinin əsərlərinin fərqli təfsirləri Y.Axundova yaradıcılığında nəzərə çarpır. Bəzi hallarda emosional təsir prinsipi, obrazlı-assosiativ təfəkkür üstünlük təşkil edir ki, bunun parlaq nümunəsi kimi R.Atakişiyevin, F.Bədəlbəylinin ifaçılıq və pedaqoji sənətini göstərmək olar.

Ümumiyyətlə, Azərbaycan fortepiano mədəniyyətinin inkişaf prinsipi tədris-pedaqoji repertuarın formalaşması ilə paralel gedərək, Azərbaycan folkloru, fortepiano ifaçılığı və pedaqogika ilə möhkəm əlaqədə olan milli fortepiano musiqisinin meydana gəlməsinə zəmin yaratmışdır. Rus fortepiano məktəbi ənənələrinə əsaslanan və milli musiqi mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan fortepiano ifaçılığında müxtəlif təfsirlərin yaradılmasına böyük üstünlük verilir. Bu baxımdan klassik pianizm elementləri ilə milli xüsusiyyətlərin uzlaşması Azərbaycan fortepiano ifaçılıq mədəniyyətinin əsas göstəricisidir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Quluzadə, R.E. Rus musiqisində impressionizm cərəyanının nümayəndələri // – Bakı: Musiqi dünyası, – 2016. №4 (69), – s. 26-27.
2. Quluzadə, R.E. Gecikmiş romantizm meyarları S.V.Raxmaninovun yaradıcılığında // "Musiqişünaslığın aktual problemləri" mövzusunda elmi konfransın materialları, – Bakı: – 4-5 dekabr, – 2019, – s. 99-105.

3. Quluzadə, R.E. İ.F.Stravinskinin küçük hacimli piyano eserlerinin özellikleri // VI Uluslarası Müzik ve Dans Kongresi, – Alanya: 30-31 oktyabr, – 2020, – s. 361-365.
4. Quluzadə, R.E. Azərbaycan fortepiano ifaçılarının repertuarında S.Raxmaninovun fortepiano əsərlərinin təfsiri // – Bakı: Musiqi dünyası, – 2021. №2 (87), – s. 78-81.
5. Quluzadə, R.E. Azərbaycan ifaçılarının repertuarında A.N.Skryabinin fortepiano əsərlərinin təfsiri // – Bakı: ADMİU, "Elmi Əsərlər" – 2021. №30, – s. 84-93.
6. Quluzadə, R.E. Azərbaycan fortepiano ifaçılarının repertuarında D.Şostakoviçin fortepiano əsərlərinin təfsiri // – Bakı: Sənət Akademiyası, – 2021. №2 (14), – s. 96-103.
7. Quluzadə, R.E. Azərbaycan fortepiano ifaçılarının repertuarında S.Prokofyevin fortepiano əsərlərinin ifa xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2022. №1 (42), – s.270-276.
8. Quluzadə, R.E. Rus bəstəkarlarının fortepiano əsərləri Xalq artisti Yeganə Axundovanın təfsirində // – Naxçıvan: Axtarışlar, – 2022. №2 (42), – s. 149-155.
9. Quluzadə, R.E. XX əsrdə mövcud olan müxtəlif cərəyanların Azərbaycan fortepiano musiqisinə təsiri (1960-70-ci illər) // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" mövzusunda XXI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26 aprel, – 2022, – s. 77-80.
10. Гулузаде, Р.Э. Роль русской исполнительской школы в развитии азербайджанского фортепианного искусства // – Москва: Музыка и время, – 2022. №9, – s.25-29.
11. Quluzadə, R.E İ.F.Stravinskinin "Petruşka" baletindən üç fraqment pianoçu Samir Mirzəyevin təfsirində // – Naxçıvan: Axtarışlar, – 2023. №2 (45), – s. 157-164.
12. Gulizade, R.E. Azerbaycan piyano sanatının gelişmesinde Rus piyano öğretmenlerinin rolü // "Azerbaijan culture and music" mövzusunda Beynəlxalq elmi simpoziumu, – Eskişehir: 18 mart, – 2024, – s.112-118.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il tarixində saat 13:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 iyul 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.07.2024

Kağızın formatı: 60x84 1/16

Həcmi: 43714 işarə

Tiraj: 100